# Qəbələdə əhalinin məşğulluğu təmin olunur

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin Qəbələ Rayon Şöbəsi ötən il rayon icra hakimiyyəti, idarə, müəssisə və təşkilatlarla birlikdə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, işsiz və işaxtaran şəxslərin müvafiq işlə təmin olunması sahəsində məqsədyönlü tədbirlər həyata keçirib.

Belə ki, rayon üzrə 2018-ci ildə 1530 nəfər işsiz və işaxtaran vətəndaşların 541 nəfəri işlə təmin olunub, 7 nəfərə işsizlik sığortası ödənilib. İşlə təmin olunanların 413 nəfəri kişilər, 128 nəfəri isə qadınlar olub ki bunun da 152 nəfərini 14-29 yaşlı gənclər təşkil edir.

İşsiz və işaxtaran şəxslərin işlə təmin olması məqsədilə hər il müntəzəm olaraq rayonda "Əmək yarmarkası" təşkil olunur. Yarmarkaya hazırlıq dövründə aparılan genişmiqyaslı təşkilati işlərin, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətlərinin nəticəsi olaraq rayon ərazisində fəaliyyət göstərən müəssisə və təşkilatlar tərəfindən boş iş yerləri işaxtaranlara təqdim olunur.

**"Qəbələ"**

# Babaqəmbər qışda da izdihamlıdır

Dizaxlı və Quşlar kəndlərinin yaxınlığında yerli əhalinin Babaqəmbər adlandırdığı ərazi öz münbit torpağı ilə fərqlənir. Burada əvvəllər taxıl yetişdirilirdi. Sonralar burada daha gəlirli olan üzüm bağları salındı. Ötən əsrin 80-cı illərində salınmış üzüm bağlarında bol və keyfiyyətli üzüm yetişirdi. Əsrin sonlarında baş verən məlum hadisələr, xarici dövlətlərlə iqtisadi əlaqələrin pozuması və baxımsızlıq nəticəsində digər sahələrdə olduğu kimi Babaqəmbərdə də üzüm bağları dağıdıldı.

Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanda hakimiyyətə gəlişi ilə respublikada həyat yenidən öz axarına düşdü. Ölkəmizdə yüksək gəlirli kənd təsərrüfatı sahələri dövlətin yüksək qayğısı ilə yenidən dirçəldilməyə başladı.

Sahibkarlığın inkişafına göstərilən hərtərəfli dəstəkdən ruhlanan iş adamlarının kənd təsərrüfatı məhsulları istehsalına maraqları yüksəldi. İş adamı Arif Rəhimovun təsis eitdiyfi ASPİ-Aqro MMC Babaqəmbər sahəsində 250 hektar ərazidə müasir tələblərə cavab verən üzüm bağı saldı. Hazırda üzüm bağından ildə 2 min tondan çox süfrə və şərab üzümü yığılır. Elə üzümlük sahəsinin yanında Savalan kəndində müəssisənin şərab zavodu fəaliyyət göstərir. Burada istehsal olunmuş şərabların şöhrəti sərhədlərimizi çoxdan aşaraq xarici bazarları fəth edib.

Qış olmasına baxmayaraq hazırda Babaqəmbərin üzüm bağlarında işlərin qızğın çağıdır. Üzüm tənəkləri budanır, yatmış kollar məftillərə bərkidilir. Bir çözlə Babaqəmbər qışda da izdihamlıdır.

Sonda qeyd edək ki, ASPİ-Aqro MMC-nin üzüm bağlarında və şərab emalı zavodunda yığım, emal və becərmə mövsümlərində 200 nəfərdən çox yerli əhali çalışır.

**Cələbi DÖNMƏZ,**
**«Qızıl qələm» media mükafatı laureatı.**

# Profilaktik tədbirlər aparılır

Qəbələ Rayon Baytarlıq İdarəsi 2019-cu ilin tədbirlər plana uyğun olaraq, rayonda ev heyvanları arasında profilaktik peyvəndləmə işlərinə başlayıb.

Baytarlıq İdarəsindən bildirirlər ki, peyvənd vasitələri təmənnasız olaraq tətbiq edilir. İlin əvvəlindən başlayaraq iribuynuzlu mal-qara, təkdırnaqlılar və donuzlar arasında qarayara xəstəliyinə qarşı peyvəndləmə tədbiri mütəşəkkil keçirilir. Bundan başqa, iribuynuzlu heyvanlardan bruselyoz xəstəliyinin müayinəsi məqsədilə qan nümunələri alınır.

İribuynuzlu heyvanlarda bu tədbirlərin fevralın sonlarına qədər yekunlaşdırılması nəzərdə tutulur. Aparılan tədbirlər çərçivəsində ilin əvvəlindən indiyə kimi "Gilan Dairy Farms" südçülük və ətçilik fermasına məxsus təsərrüfatda 250 baş və ayrı-ayrı şəxsi təsərrüfatlarda 1000 başdan çox iribuynuzlu heyvanda qarayara xəstəliyi əleyhinə peyvəndləmə tədbiri aparılıb, 350 baş iribuynuzlu heyvandan bruselyoz xəstəliyinin müəyyən edilməsi məqsədilə qan nümunəsi götürülərək laboratoriyaya göndərilib və 520 kvadratmetr sahədə dezinfeksiya işləri görülüb.



Həmçinin Gürcüstanda insanlar arasında yayılan "donuz qripi" (A-H1N1 tipi) xəstəliyinin ölkəmizə keçməsinə qarşı profilaktik tədbir kimi, eləcə də epizootoloji sabitliyi təmin etmək məqsədilə Nic qəsəbəsindəki fərdi təsərrüfatlarda heyvanlara mütəmadi baytarlıq baxışı keçirilir, sahibkarlarla görüşlər təşkil olunur. Kliniki müayinə zamanı donuzların heç birində infeksion xəstəliyin əlamətləri aşkarlanmayıb. Üç aydan böyük olan donuzlarda isə qarayara xəstəliyinə qarşı peyvəndləmə aparılıb.

Maarifləndirmə tədbirləri çərçivəsində baytar mütəxəssisləri qarayara, bruselyoz və "donuz qripi" xəstəlikləri barədə təsərrüfat sahiblərinə ətraflı məlumat verərək baytarlıq-sanitariya qaydalarına ciddi əməl olunmasını tövsiyə ediblər.

Bu günlərdə Qəbələ rayonunda epizootik plana uyğun olaraq ev quşları arasında nyukasl, iribuynuzlu heyvanlarda dabaq, nodulyar dermatit, leptespiros, bruselyoz, xırdabuynuzlu heyvanlarda qarayara, dabaq, çiçək, leptespiros xəstəliklərinə qarşı profilaktik peyvəndləmə tədbirlərinin aparılmasına başlanılacaq. Həmçinin həssas heyvanlar arasında bruselyoz xəstəliyini aşkar etmək, xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə xırdabuynuzlu heyvanlardan qan nümunələrinin alınması, iribuynuzlu heyvanlarda vərəmə, infeksion epidemitə və atlarda manqo xəstəliyinə görə müayinələrin aparılması nəzərdə tutulur.

Baytarlıq idarəsi baytarlıq preparatları, lazımi ləvazimat və avadanlıqlarla təmin edilib və əhalinin mal-qarasına ödənişsiz əsaslarla tətbiq edilir.

Görülən işlərin nəticəsində hazırda rayonda epizootik vəziyyət sabitdir.

**"Qəbələ"**

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

# 2019/2020-ci tədris ili üçün DİN-in Polis Akademiyasına əyani təhsil üzrə kursntlarin qəbuluna dair elan

Azərbaycan Respublikası daxili işlər nazirliyi xüsusi ləyinnilı təhsil müəssisəsi olan Polis Akademiyasında əyanı təhsil üzrə 150 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2019-cu ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçi olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2019-cu ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2019-cu il yanvar ayının 21-dən fevral ayının 28-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10°°-dan 17°°-dək namizədin daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

–şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

–təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

–yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

–ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

–oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

-9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-97-76.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər DİN-in Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq imtahanı və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma - 6 dəfə; qaçış 100 metr məsafəyə - 15 saniyə və 1000 metr məsafəyə - 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması - 18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması - 18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması - 18 dəfə, qaçış 100 metr məsafəyə - 19 saniyə və 1000 metr məsafəyə - 5 dəqiqə 30 saniyə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır,

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar test üsulu ilə birinci mərhələdə buraxılış imtahanı fənləri üzrə, ikinci mərhələdə isə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 12 avqust - 14 sentyabr 2019-cu il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 16 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.